# Müəllim günü keçirilmişdir

Vətənimizin hər yerində olduğu kimi Qəbələ rayonunda da Müəllimlər Günü təntənə ilə qeyd olundu. Müəllimlərin beynəlxalq səviyyədə qeyd olunan bu peşə bayramlarının tarixi 1966-cı ilin oktyabrından başlayır. Həmin il YUNESKO hər il oktyabrın 5-ni Beynəlxalq Müəllimlər Günü kimi qeyd etməyi qərarlaşdırmışdır. Artıq dünyanın 100-dən artıq ölkəsində 5 oktyabr Müəllimlər Günü kimi qeyd olunur. Maraqlıdır ki, keçmiş SSRİ-də də YUNESKO-nun qərarından bir il öncə, 1965-ci ildə hər il oktyabr ayının birinci bazar gününü müəllimlərin peşə bayramı kimi qeyd etmək qərara alınmışdı. Müstəqil Azərbaycanımızda 1993-cü ildən başlayaraq 5 oktyabr hər il müəllimlərin peşə bayramı kimi qeyd edilir. Ölkəmizdə ta qədimdən müəllimlik sənəti ən şərəfli sənət sayılır. Bu sənət fədailərinə tarix boyu vətənimizdə böyük sevgi və ehtiram göstərilmişdir. Vaxtilə ulu öndər Heydər Əliyev də müəllimlik peşəsinə yüksək qiymət vermiş və bu barədə demişdir: «Hər birimizdə müəllimin həraretli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən böyük ad tanımıram».




Qəbələ müəllimlərinin bir qrupu peşə bayramlarını qeyd etmək üçün şəhərimizin cənubunda, yeni yaşayış massivində bu dərs ilində istifadəyə verilmiş, möhtəşəmliy ilə diqqəti cəlb edən 5 saylı tam orta məktəbin akt zalına toplaşmışdılar. Şən melodiyaların müşayiətilə tədbiri açan aparıcılar ölkəmizin Dövlət Himni səsləndikdən sonra ilk öncə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayon müəllimlərinə ünvanladığı təbriki çatdırmaq sözü RİH başçısının müavini Ətayə Osmanovaya verdilər. Təbrik məktubunda qeyd olundu ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra təhsil sahəsinə, müəllimə münasibət daha da yaxşılaşmışdır. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin təhsilin inkişafı ilə bağlı həyata keçirdiyi kompleks tədbirlər, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir.Hər il Müəllimlər Günü ərəfəsində hörmətli Prezidentimiz təhsildə qabaqcıl təcrübəsi, fədakar əməyi ilə seçilən müəllimləri orden və medallarla, fəxri adlarla təltif edir. Sevindirici haldır ki, möhtərəm Prezidentimizin 2 oktyabr 2015-ci il tarixdə imzaladığı Sərəncamla Vəndam qəsəbə 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi Mirzəyeva Zöhrə Məzayir qızı əməkdar müəllim fəxri adına layiq görülmüşdür.



Qəbələ müəllimləri bu ilki peşə bayramlarını böyük fəxrlə qeyd edirlər. Onların buna haqqı var. Bu ilki məzunlardan 467 nəfəri ali və orta ixtisas məktəblərinə qəbul olunmuşdur ki, bu da əvvəlki ildəkindən xeyli çoxdur.

Bayram tədbirində Qəbələ Rayon Təhsil Şöbəsi metodkabinetinin direktoru Arifə Bayramova, şəhər 5 saylı tam orta məktəbin direktoru Zərnişan Ağamirzəyeva, əməkdar müəllim Zöhrə Mirzəyeva, müsabiqə qalibi Nərminə Səfərova, gənc müəllimə Şahnaz Məmmədova və başqaları söz alaraq müəllim həmkarlarını peşə bayramları münasibətilə təbrik etdilər, yeni başlanmış dərs ilində uğurlar arzuladılar.

Bayram tədbiri şən musiqi, şux rəqslərlə müşayiət olunurdu.

**Rəna SƏMƏDOVA,**
**Qəbələ şəhər 5 saylı tam orta məktəbin müəllimi.**
**Fotolar İ. Vəlizadənindir.**

# Müəllim!

5 oktyabr gözəl, möhtəşəm bir gün. Müəllimlər günü Həyatın ən anlamlı, ən gözəl bir günü. Möhtəşəm peşə sahibləri olan müəllimlərin bayram günü.

Allahım bu necə bir hikmət, necə bir şərəfli peşədir. Bu peşənin sahibi olmaq hər insanın işi deyil.

Müəllim deyəndə həmişə bir şeir yadıma düşür. Dahi şairimiz Bəxtiyar Vahabzadənin "Müəllim" şeiri:

***Müəllim, qayğınla böyüyür insan,***
***Sən əqlə, kamala qanad verirsən.***
***Ana dilimizin gur bulağından,***
***Körpə balalara su içirirsən!***

Necədə gözəl misralardır. Dünyada görəsən başqa hansı peşəyə belə gözəl misralar yazılıb, qafiyələr qoşulub? Heç bir peşəyə. Sadəcə sözdə də, özü kimi, muncuq tək düzülən müəllimə.

Neçə ildir ki, müəllimlərdən dərs alıram. Onların mülayim danışığı, ən tənbəl şagirdi belə dərsə cəlb edir. Onun nəvazişi, şagirdlərə qayğı göstərməsi dünyadakı hər şeyə dəyər. Çünki o, bizə hər kəsdən doğmadır, hər kəsdən əzizdir.

Onun bizi nadinclik üstündə danlaması belə bizə şirin, doğma gəlir.

Hər kəs deyir ki, dünyadakı yenilikləri alimlər yaradır. Yox! Müəllim yaradır. Axı müəllim olmasa o alimlər alim ola bilməz.

Əziz müəllimlər bayramınız mübarək. Yaxşı ki, varsınız.

**Elnarə ASLAN,**
**Bunud kəndi.**

# Ənənəyə sadiq təhsil ocağı

Qədim tarixə malik olan Bum qəsəbəsi həmişə özünün ziyalıları, ağsaqqalları, başbilənləri, özünün ənənəsi ilə seçilib və seçilir. Bu baxımdan Bum məktəbinin tarixi də bizi uzaq keçmişə apırır. Bumda ilk dəfə məktəb 1879-cu ildə açılıb. Hələ XX əsrin əvvəllərində Bumda Mahmudbəy Şıxməmmədbəyov kimi məşhur və ziyalı bəy olub. 1911-1916-ci illərdə Qori müəllimlər seminariyasında təhsil almış, sonradan pedaqoji elmlər namizədi adını almış Cahangir Şıxməmmədbəyov Mahmud bəyin oğludur. Cahangir müəllim alman, fransız, rus, türkmən və özbək dillərini çox gözəl bilirmiş. Deyilənə görə o vaxt Qori seminariyasnı 13 nəfər bumlu bitirib. Hələ 1921-ci ildə Bumda Adilə Zahid qızı və Vəsilə Mahmud qızı kimi qadın alimlərimiz yetişib. Adilə xanım Azərbaycan Elmlər Akademiyasında, Vəsilə xanım isə Tacikistan Tibb İnstitunda çalışıb. Bu gün Bum qəsəbəsi özünün 10-dan çox alimi ilə fəxr edir.

1879-cu ildə açılan Bum məktəbi 2 illik rus-tatar məktəbi idi. Bu məktəbi açan və burada ilk dəfə müəllimlik edən Yusif bəy Əmircanov olub. Bura ilk dəfə 19 nəfər şagird cəlb edilib. Bir qədər sonra məktəbin müəllimi Qarabaldırlı Süleyman bəy Abdurrahmanbəyov olub. Süleyman bəy Mahmud bəyin də müəllimi olub. 1891-ci ilə isə Bum məktəbində bumlu uçitel Bala bəy dərs deməyə başlayıb. Balabəy müəllimin yerli kimi Şimaxıdan Buma gəlməyi kənddə çox böyük sevinclə qarşılanır. o vaxt məktəb 5 sinifli olub. Burada dini dərslər də keçilirmiş. Uçitel Bala bəyin təklifi ilə 1910-cu ildə məktəbə Nuxadan (Şəki) türk dilində dərs demək üçün Mağbud Əfəndi Hacı Əfəndi oğlu dəvət edilib. Balabəy müəllim yavaş-yavaş qızları da məktəbə cəlb etməyə başlayır. O vaxt Gəncə quberniyasında ilk dəfə 1911-ci ildə qız məktəbi Bumda açılır. Bura 23 nəfər qız cəlb olunur. Bu da böyük hadisə kimi qarşılanır.

Bu gün cözəlləşən Azərbaycanımızda quruculuq işləri durmadan genişlənir. Doğma Qəbələmiz, o cümlədən Bum qəsəbəsi öz simasını gündən-günə dəyişir. Hər il qəsəbəsmizdə orta təhsil attestatı alanlardan 10-15 nəfəri ali təhsil ocaqlarına, bir o qədəri də orta ixtisas məktəblərinə,daxil olur. Təkcə bu il 15 nəfər ali məktəblərə sənəd vermiş, onların 12 nəfəri müxtəlif ali məktəblərə, 7 nəfər isə texnikumlara qəbul olunmuşdur.

Müəllimlər bu dərs ilini daha böyük uğurlarla başa vurmaq əzmi ilə yeni dərs ilinə başlamışlar. Məktəbdə yaranmış işgüzar mühit buna təminat verir.

**Emin ƏDİLLİ.**

# Tədbir keçirildi

Beynəlxalq Müəllimlər günü münasibətilə Xırxatala kənd tam orta məktəbində tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə məktəbin direktoru Əhmədiyyə Hacıyev açmışdır. Direktor bildirmişdir ki, ölkəmizdə müəllimlik əməyinə yüksək qiymət verilir. Bu təsadüfi deyil. Çünki müəllim gənc nəslin Vətənimizin gələcəyinə layiq yetişməsi üçün ömrünü şam kimi əridir. Ə. Hacıyev qeyd etdi ki, müəllimlərimizin fədakar əməyi sayəsində məktəbimizin uğurları ildən-ilə artır. Yüksək balla ali məktəblərə qəbul olunan məzunlarımızın sayı ildən-ilə çoxalır. Digər çıxış edənlər də məktəbin son illərdəki uğurlarında müəllimlərin rolundan qürurla bəhs etdilər.

**"Qəbələ".**